<table>
<tr><td rowspan="9">Ümumi məlumat</td><td>Fənnin adı, kodu və kreditlərin sayı</td><td>EDU 302, Kurikulum və qiymətləndirmə strategiyaları, 6 AKTS</td></tr>
<tr><td>Departament</td><td>Təhsil</td></tr>
<tr><td>Proqram (bakalavr, magistr)</td><td>Bakalavr</td></tr>
<tr><td>Tədris semestri</td><td>2025/26-cı tədris ilinin yaz semestri</td></tr>
<tr><td>Fənni tədris edən müəllim (lər)</td><td>Arzu Nəsirli</td></tr>
<tr><td>E-mail:</td><td>arzunasirli@gmail.com<br>arzu.nasirli@khazar.org</td></tr>
<tr><td>Telefon:</td><td>-</td></tr>
<tr><td>Mühazirə otağı/Cədvəl</td><td>Nərimanov korpusu</td></tr>
<tr><td>Məsləhət saatları</td><td>Razılaşdırılaraq təyin etmə ilə</td></tr>
<tr><td>Prerekvizitlər</td><td colspan="2">EDU 101 Təhsilə giriş</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="2">Azərbaycan</td></tr>
<tr><td>Fənnin növü (məcburi, seçmə)</td><td colspan="2">Məcburi</td></tr>
<tr><td>Dərsliklər və əlavə ədəbiyyat</td><td colspan="2">1. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. 2009.<br>2. Kurikulum bələdçisi (izahlar və tətbiqlər), Kitab , Bakı, “Elm və təhsil”, 2019, 320 səh.<br>3. Süleymanova A. Təhsilin əsasları. Bakı “Təhsil” 2014. 400 səh.<br>4. Abdullayev A. Təhsilin əsasları: Təhsi fəlsəfəsi və təlim prosesi Azərbaycan müəllimi.- 2010<br>5. Ə Əlizadə. İ. Sultanova Taksonomiya nəzəriyyəsi və təcrübəsi: müasir məktəbin işıqlı yolu Elmi-metodik kitab. Bakı, 2008<br>6. Azərbaycan Respublikası ümumtəhsil məktəbləri üçün fənn kurikulumları (I-XI siniflər), Bakı 2013<br>7. Formativ qiymətləndirmə, metodik vəsait, ARTİ, Bakı 2024.<br>8. Azərbaycan Respublikasının ümumi təhsil sistemində qiymətləndirmə Konsepsiyası (2009)<br>9. https://www.arti.edu.az/az/presentation/842-hovard-qardner-quot-coxnovlu-intellekt-quot-nazariyyasi<br>10. https://www.howardgardner.com/selected-research-papers<br>11. https://www.arti.edu.az/az/presentation/639-formativ-qiymatlandirma-usullari<br>12. https://arti.edu.az/wp-content/uploads/2026/01/Formativ-qiym%C9%99tl%C9%99ndirm%C9%99-metodik-v%C9%99sait.pdf<br><br>Kurs, yuxarıda göstərilən dərsliklərin və Xəzər Universiteti kitabxanasında mövcud olan tədris materiallarının istifadəsini məhdudlaşdırmır.</td></tr>
</table>

| | |
|---|---|
| **Kursun təsviri** | “Kurikulum və qiymətləndirmə strategiyaları” fənni ali məktəblərin təhsil fakültə və müəllim hazırlığı ixtisaslarında təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur və müasir təhsil sistemində kurikulumun hazırlanması, strukturu, komponentləri və bu komponentlər arasında qarşılıqlı əlaqələrin mənimsədilməsini təmin edir. Kurs çərçivəsində tələbələr təhsil proqramlarının məqsədlərinin müəyyənləşdirilməsi, məzmunun seçilməsi, təlimin təşkili və qiymətləndirmə mexanizmləri ilə bağlı əsas anlayış və yanaşmalarla tanış olurlar.<br>Fənn həmçinin təhsildə qiymətləndirmə sahəsində diaqnostik, formativ və summativ qiymətləndirmə anlayışlarını, qiymətləndirmə meyarlarının hazırlanmasını və tətbiqini praktiki nümunələr əsasında öyrədir. Tələbələr illik və cari planlaşdırma, dərs üzrə məqsədlərin formalaşdırılması, təlim nəticələrinin ölçülməsi və təhlili bacarıqlarına yiyələnirlər. Bu bacarıqlar gələcək pedaqoji fəaliyyətlərində onların daha məqsədyönlü və səmərəli müəllim kimi fəaliyyət göstərmələrinə imkan yaradır.<br>Kurs tələbələrə kurikulumun fəlsəfi, sosioloji, psixopedaqoji və metodoloji əsaslarını praktik müstəvidə tətbiq etməyi öyrədir. Tədris prosesində interaktiv təlim metodları, situativ tapşırıqlar, nümunə dərs planları və qiymətləndirmə alətləri üzərində iş aparılır. Bu yanaşma tələbələrdə tənqidi düşünmə, yaradıcı yanaşma və tədqiqatçı müəllim mövqeyinin formalaşmasına şərait yaradır.<br>Nəticə etibarilə, fənn tələbələrin həm nəzəri, həm də praktik baxımdan peşəkar müəllim kimi hazırlanmasına, kurikulumun effektiv tətbiqinə və təhsildə keyfiyyətli qiymətləndirmə strategiyalarından istifadə etməklə pedaqoji fəaliyyətdə uğur qazanmalarına xidmət edir. |
| **Kursun məqsədləri** | “Kurikulum və qiymətləndirmə strategiyaları” fənninin əsas məqsədi ali məktəblərin təhsil fakültə və müəllim hazırlığı ixtisaslarında təhsil alan tələbələrdə kurikulumun nəzəri və praktik əsasları üzrə bilik, bacarıq və vərdişlər formalaşdırmaqla peşəkar müəllimlərin hazırlanmasına töhfə verməkdir. Kurs təhsilə müasir yanaşmaları mənimsəyən, yeni fənn kurikulumlarını uğurla tətbiq edən, təlim prosesini səmərəli planlaşdıran və qiymətləndirmə strategiyalarından məqsədyönlü istifadə edən müəllimlərin yetişdirilməsini hədəfləyir.<br>Eyni zamanda fənn ümumi təhsilin keyfiyyətinin yüksəldilməsinə töhfə verən lider, yaradıcı və tədqiqatçı müəllimlərin formalaşmasına şərait yaradır, onların pedaqoji fəaliyyətdə müasir çağırışlara çevik və əsaslandırılmış şəkildə cavab vermək bacarıqlarını inkişaf etdirir. |

<table>
<tr><td rowspan="1">Təlim nəticələri</td><td colspan="3">Bu kursun sonunda tələbələr:<br><br>
• Sillabusun mahiyyətini, strukturunu və fənnin məqsədləri ilə qiymətləndirmə siyasəti arasındakı əlaqəni izah edirlər.<br>
• Təhsil sistemi və təhsil sisteminin quruluşunu təhlil edərək təlim prosesinin təşkili ilə əlaqələndirirlər.<br>
• Müxtəlif təhsil fəlsəfələrinin təlim prosesinin qurulmasına təsirini müqayisə edirlər.<br>
• Təhsildə psixopedaqoji məsələləri və Bloom taksonomiyasının təlim məqsədlərinin formalaşdırılmasında rolunu şərh edirlər.<br>
• Öyrənmə nəzəriyyələrini, o cümlədən H. Qardnerin çoxnövlü intellekt nəzəriyyəsini təlim prosesində tətbiq edirlər.<br>
• Fənn kurikulumlarının mahiyyətini, xüsusiyyətlərini, eləcə də kurikulumların məzmun və strukturlarını təhlil edirlər.<br>
• Təhsil proqramlarının məqsədlərini, təlim nəticələrini, məzmun standartlarını və bacarıqlarını müəyyən edirlər.<br>
• Təlim strategiyalarını, təlimin təşkili prinsiplərini, metod və texnikalarını uyğun təlim formaları ilə seçib tətbiq edirlər.<br>
• İllik və cari planlaşdırma nümunələrini hazırlayaraq təlim prosesində istifadə edirlər.<br>
• Cari planlaşdırmanın əsas xüsusiyyətlərini və fənn dərsinin mərhələlərini izah edirlər.<br>
• Qiymətləndirmənin mahiyyətini, xarakterini və növlərini (beynəlxalq, milli, məktəbdaxili) fərqləndirirlər.<br>
• Qiymətləndirmənin əsas prinsiplərini təlim prosesində əsaslandıraraq tətbiq edirlər.<br>
• Məktəbdaxili diaqnostik qiymətləndirmənin məqsədini, forma və vasitələrini istifadə edirlər.<br>
• Məktəbdaxili formativ qiymətləndirməni təlim prosesində səmərəli şəkildə tətbiq edirlər.<br>
• Məktəbdaxili summativ qiymətləndirmənin forma və vasitələrini seçərək şagird nailiyyətlərinin ölçülməsində istifadə edirlər və qiymətləndirmə tapşırıqlarını tərtib edirlər.</td></tr>
<tr><td rowspan="5">Tədris metodları</td><td colspan="2">Məşğələ</td><td>x</td></tr>
<tr><td colspan="2">Qrup müzakirəsi</td><td>x</td></tr>
<tr><td colspan="2">Praktiki tapşırıqlar</td><td>x</td></tr>
<tr><td colspan="2">Praktiki məsələnin təhlili</td><td>x</td></tr>
<tr><td colspan="2">Təqdimat</td><td>x</td></tr>
<tr><td rowspan="2">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Fərdi tapşırıq</td><td></td><td>5</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | **Fərdi layihə** | | 10 |
| | **Davamiyyət və aktivlik** | | 5 |
| | **Yoxlama (quiz) 1, 2, 3, 4.** | | 20 |
| | **Aralıq imtahanı** | | 30 |
| | **Final imtahanı** | | 30 |
| | **Yekun** | | 100 |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Qiymətləndirmə**<br>**Fərdi tapşırıq** (5 bal) - Hər hansı qiymətləndirmə növünə aid tapşırıq nümunəsi hazırlanacaq. Tapşırıq qiymətləndirilən zaman qiymətləndirmə nümunəsinin standartlara uyğunluğu, qiymətləndirmə formasına uyğun seçilməsi nəzərə alınacaq. Qüsurlara görə ümumi baldan çıxılacaq.<br><br>**Fərdi layihə** (10 bal) **-** Təqdim ediləcək plan əsasında cari planlaşdırma nümunəsinin və mövzuya müvafiq təqdimat hazırlanaraq təqdim edilməsi.<br>Cari planlaşdırma üçün maksimum bal – 5 bal.<br>Cari planlaşdırmada qeyd edilmiş mövzuya uyğun təqdimat vasitəsilə dərs nümunəsinin təqdimatı – 5 bal.<br><br>**Davamiyyət** (5 bal)<br>Hər dərsdə iştirak etmək vacibdir. Sinif fəaliyyətləri təhsilanalanların yeni bilik və bacarıqları anlamasına və tətbiq etməsinə töhfə verir. Hər hansı bir dərsdə tələbə iştirak etmədiyi zaman buraxılmış tapşırıq və ya qeydlərə görə tələbə özü məsuliyyət daşıyır.<br><br>**Aktivlik** - hər dərs günündə praktik tapşırıqları yerinə yetirilməsi və təqdimat edilməsi prosesi nəzərə alınaraq yekunda qiymətləndirilmə aparılacaq.<br><br>**Yoxlama (quiz) 1, 2, 3, 4.** Tədris olunan mövzular üzrə açıq və qapalı tip sualların cavablandırılması şəklində keçirilməyi nəzərdə tutulur.<br><br>**İmtahanlar** Aralıq imtahanı aprel ayında tədris olunan mövzular üzrə, final imtahanı iyun ayında tədris olunan mövzular əsasında keçiriləcəkdir. Tələbənin imtahanda iştirakı və ya imtahana buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur. İmtahan vaxtı imtahanın gedişini pozmaq və köçürmələr qadağandır. Bu qaydaya əməl etməyən tələbənin imtahan işi ləğv olunr və tələbə 0 (sıfır) qiyməti ilə imtahandan kənarlaşdırılır. | | |

**Auditoriya qaydaları**

- Dərsə zamanında gəlmək və iştirak etmək tələb olunur;
- Tapşırıqları zamanında təhvil vermək tələb olunur;
- Plagiarizm qəbul edilməyəcəkdir.
- Auditoriyanın bütün nümayəndələrinə hörmətlə yanaşmanız tələb olunur.

**Tələblər:**

1. Mövzular ilə əlaqəli bütün mətnlərin, məqalə və materialların oxunması;
2. Sinif müzakirələrində və fəaliyyətlərində hər zaman fəal iştirak;
3. Tapşırıqları zamanında və onlayn, çap formatda təqdim etmək;
4. Fərdi tapşırıqları öncədən təqdim edilmiş vaxt müddətində yerinə yetirmək;
5. Ciddi xəstəlik və ya fövqəladə hallar istisna olmaqla mütəmadi olaraq dərsdə davamiyyət.

**Cədvəl (dəyişdirilə bilər)**

| **Həftə** | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
|---|---|---|---|
| 1. | 17.02.2026 | Sillabus - fənnin məqsədləri, qiymətləndirmə siyasəti haqda məlumat.<br>Təhsil sistemi və təhsil sisteminin quruluşu | “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. 2009.<br>Kurikulum bələdçisi (izahlar və tətbiqlər), Kitab, Bakı, “Elm və təhsil”, 2019, 320 səh. Bölmə I. |
| 2. | 24.02.2026 | Müxtəlif təhsil fəlsəfələri və təlim prosesinin qurulmasına təsiri | Süleymanova A. Təhsilin əsasları. Bakı “Təhsil”2014.400 səh. Səhifə 39-47.<br>AbdullayevA.Təhsilin əsasları: Təhsi fəlsəfəsi və təlim prosesi Azərbaycan müəllimi.- 2010 |
| 3. | 03.03.2026 | Təhsildə psixopedaqoji məsələlər.<br>Blum taksanomiyası | Kurikulum bələdçisi (izahlar və tətbiqlər), Kitab, Bakı, “Elm və təhsil”, 2019. VI bölmə<br>Ə Əlizadə. İ.Sultanova Taksonomiya nəzəriyyəsi və təcrübəsi: müasir məktəbin işıqlı yolu Elmi-metodik kitab. Bakı, 2008 |

| | | | |
|---|---|---|---|
| 4. | 10.03.2026 | Öyrənmə nəzəriyyələri.<br>H.Qardner-Çoxnövlü intellekt nəzəriyyəsi<br>Quiz 1. | ARTI. Metodik Dəstək Mərkəzi. M.Məhərrəmova. https://www.howardgardner.com/selected-research-papers |
| 5. | 17.03.2026 | Fənn kurikulumları və xüsusiyyətləri. İxtisas fənləri üzrə proqramların (kurikulumlrın) məzmun və strukturlarının araşdırılması | Kurikulum bələdçisi (izahlar və tətbiqlər), Kitab , Bakı, "Elm və təhsil", 2019. IV bölmə. |
| 6. | 24.03.2026 | Təhsil proqramlarının məqsədləri; təlim nəticələrinin, məzmunun standartların və bacarıqların müəyyən edilməsi. | Kurikulum bələdçisi (izahlar və tətbiqlər), Kitab, Bakı, "Elm və təhsil", 2019. II bölmə. Səh.120-145. |
| 7. | 31.03.2026 | Təlim strategiyaları. Təlimin təşkili prinsipləri. Təlim metodları və texnikaları, təlim formaları<br>Quiz II | Azərbaycan Respublikası ümumtəhsil məktəbləri üçün fənn kurikulumları (I-XI siniflər), Bakı 2013 səh.75-115<br>Kurikulum bələdçisi (izahlar və tətbiqlər), Kitab, Bakı, "Elm və təhsil", 2019, 320 səh Səhifə 181-193. |
| **Aralıq imtahanı** | | | |
| 8. | 07.04.2026 | Planlaşdırma növləri və planlaşdırma nümunələri. | Azərbaycan Respublikası ümumtəhsil məktəbləri üçün fənn kurikulumları (I-XI siniflər), Bakı 2013 |
| 9. | 14.04.2026 | Cari planlaşdırmanın əsas xüsusiyyyətləri, fəal dərsin mərhələləri. | Kurikulum bələdçisi (izahlar və tətbiqlər), Kitab , Bakı, "Elm və təhsil", 2019, 320 səh Səhifə 107-114<br>Azərbaycan Respublikası ümumtəhsil məktəbləri üçün fənn kurikulumları (I-XI siniflər), Bakı 2013 |
| 10. | 21.04.2026 | Qiymətləndirmənin mahiyyəti, xarakteri, növləri (beynəlxalq, milli, məktəbdaxili ) | Kurikulum bələdçisi (izahlar və tətbiqlər), Kitab , Bakı, "Elm və təhsil", 2019, 320 səh Səhifə 273-277 Azərbaycan Respublikası ümumtəhsil |

| | | | |
|---|---|---|---|
| | | | məktəbləri üçün fənn kurikulumları (I-XI siniflər), Bakı 2013 |
| 11. | 28.04.2026 | Qiymətləndirmənin prinsipləri.<br>Quiz III | Kurikulum bələdçisi (izahlar və tətbiqlər), Kitab , Bakı, "Elm və təhsil", 2019, 320 səh Səhifə 281-284 |
| 12. | 05.05.2026 | Məktəbdaxili qiymətləndirmənin növləri: Diaqnostik qiymətləndirmə, forma və vasitələr | Kurikulum bələdçisi (izahlar və tətbiqlər), Kitab , Bakı, "Elm və təhsil", 2019, 320 səh Səhifə 284-286, 293-295 |
| 13. | 12.05.2026 | Məktəbdaxili qiymətləndirmə: Formativ qiymətləndirmə, forma və vasitələr | Kurikulum bələdçisi (izahlar və tətbiqlər), Kitab , Bakı, "Elm və təhsil", 2019, 320 səh Səhifə 289-293<br>Formativ qiymətləndirmə, metodik vəsait, ARTİ, Bakı 2024. |
| 14. | 19.05.2026 | Məktəbdaxili qiymətləndirmə: Summativ qiymətləndirmə, forma və vasitələr | Kurikulum bələdçisi (izahlar və tətbiqlər), Kitab , Bakı, "Elm və təhsil", 2019, 320 səh Səhifə 286-289 |
| 15. | 26.05.2026 | Quiz IV. Tələbə təqdimatlarının təqdimatı | |
| **Final imtahanı** | | | |